Vəliyeva Züleyxa Rafiq qızı

ASC “Xalq” Bankı - Bankın "Gəncə" filialının kiçik katib - referenti

VALYUTA BAZARI, MƏZƏNNƏ, ALICILIQ QABİLİYYƏTİ PARİTETİ VƏ "QARA BAZAR" ANLAYIŞLARININ ƏLAQƏSİ

Vəliyeva Züleyxa Rafiq qızı

Hər bir ölkənin əsas iqtisadi gücü onun milli valyutasıdır. Milli valyutanın xarici valyutalara nisbi isə bu ölkənin regionda və dünyada tutduğu iqtisadi mövqeyi əks etdirir. Valyuta bir yaxud bir neçə ölkənin istifadə etdiyi pul nominalıdır. Pul isə öz-özlüyündə malların yaxud xidmətlərin dəyərini ölçən əsas ekvivalentdir. Hər bir mal və xidmət insanların tələbatlarını ödəməyindən asılı olaraq bazarda tələblə məhdudlaşdırılmağına baxmayaraq müəyyən daxili dəyərə malikdir və bu dəyər məhs valyuta ilə ölçülür. Beləliklə ümimi sistem elə qurulur ki, malı və xidməti satan şəxs həmişə mənfəət əldə etsin. Lakın dövlətin çap etdiyi və dövriyəyə buraxdığı pul kütləsi tələblə məhdudlaşmır. Dövlət pul çapını müəyən faktorlar səbəbindən artıra bildiyi kimi azaldada bilir ki, bu proseslər həmişə iqtisadiyyatla bağlı olmur. İqtisadiyyat artdığı təqdirdə pul kütləsidə artmalıdır əks halda ölkədə pul qıtlığı yaranar ki buda defilasiyaya gətirib çıxarar. Pul kütləsi həddindən çox çoxaldığı təqdirdə isə tam tərsi milli valyuta dəyərdən düşər və infilyasiya yaranar. Milli valyuta həmişə milli iqtisadiyyata qarşı taraz vəziyyətdə olmalıdır. Bu olduqca qəliz bir prosesdir və bu prosesi Azərbacan Respublikasının Mərkəzi Bankı həyata keçirilir həmçinin ciddi nəzarət edir. Beləliklə ölkədə pul dövriyyəsinin hətta ən kiçik fərqi belə ölkə iqtisadiyyatına küllü miqdarda ziyan vura bilər. Hər il Azərbaycan Respublikası istehsal etdiyi məhsulu və xidməti xarici ölkələrə satır (eksport) və eyniliklə xarici ölkələrdən məhsul və xidmətlər bizim ölkəmizə daxil olur (import). Bu zaman xarici valyuta ilə milli valyuta arasında müəyyən nisbət yaranır ki, buda öz növbəsində valyuta məzənnəsinin yaranmasının əsas səbəbidir. Banklar valyutaya olan tələbi ödəyə bilmədikləri zaman kölqə iqtisadiyyati bir sözlə desək "qara bazar" yaranır. "Qara bazar" iqtisadiyyatın istənilən sektoru və istənilən vahidi üçün mövcud ola bilər və valyuta istisna deyildir. "Qara bazar"-da xarici valyutanın milli valyutaya qarşı olan nisbi hər zaman Mərkəzi Bankın elan etdiyi məzənnədən fərqli olur. Kotirovkada manat həmişə elan olunmuş məzənnədən fərqli olaraq yuxarı dəyərə malik olur ki, buda son nəticədə manatın ucuzlaşmasına gətirib çixarır. Bəs bu amil milli iqtisadiyyatımıza necə təsir edə bilər? Bu faktorun müsbət və mənfi cəhətləri manatın məzənnəsinə necə təsir edə bilər?

Ümimiyətlə təsir faktorunun araşdırılması zamanı bəzi anlayışlar böyük rol oynayırlar. Bunlardan biri - *Valyuta bazarı və məzənnə anlayışlarıdır*. Çünki məhz valyuta

bazarında valyutaların tələb-təklifi formalaşır və yaranmış tələb-təklif müəyyən məzənnə çərşivəsində öz nəticəsini tapır. Cədvəldə (Cədvəl 1.0) 2005-2021-ci illər ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfinfən elan olunmuş manatın xarici valyutalara qarşı rəsmi orta məzənnəsini görürük. Əks edilmiş məzənnə Azərbaycan Respublikasının Mərkəzi Bankının işlətdiyi siyasətinin əsas təsir mexanizmidir.

Cədvəl 1.0 Manatın xarici valyutalara qarşı rəsmi orta məzənnəsi

Table 1.0 Official average exchange rates of manat

İl, ay	**ABŞ dolları**	**AVRO**	**Avstraliya dolları**	**Çin yuanı**	**Rusiya rublu**
Year, month	US dollar	EURO	Australian dollar	Chinese yuan	Russian ruble
2005	**0.9459**	**1.1799**	**0.7214**	**0.1154**	**0.0335**
2006	**0.8927**	**1.1231**	**0.6741**	**0.1121**	**0.0329**
2007	**0.8579**	**1.1769**	**0.7198**	**0.1128**	**0.0336**
2008	**0.8216**	**1.2100**	**0.7019**	**0.1182**	**0.0332**
2009	**0.8038**	**1.1204**	**0.6357**	**0.1177**	**0.0254**
2010	**0.8026**	**1.0657**	**0.7377**	**0.1186**	**0.0264**
2011	**0.7897**	**1.0995**	**0.8148**	**0.1222**	**0.0269**
2012	**0.7856**	**1.0102**	**0.8138**	**0.1245**	**0.0253**
2013	**0.7845**	**1.0422**	**0.7594**	**0.1276**	**0.0247**
2014	**0.7844**	**1.0430**	**0.7078**	**0.1273**	**0.0208**
2015	**1.0261**	**1.1381**	**0.7705**	**0.1632**	**0.0170**
2016	**1.5959**	**1.7659**	**1.1879**	**0.2402**	**0.0239**
2017	**1.7212**	**1.9423**	**1.3189**	**0.2547**	**0.0295**
2018	**1.7000**	**2.0093**	**1.2719**	**0.2574**	**0.0272**
2019	**1.7000**	**1.9036**	**1.1819**	**0.2462**	**0.0263**
2020	**1.7**	**2.0694**	**1.2803**	**0.2600**	**0.0230**
2021					
01	1.7000	2.0713	1.3118	0.2625	0.0229
02	1.7000	2.0559	1.3173	0.2631	0.0229

**** 01.01.2006 tarixinə kimi 1000 valyuta vahidi / 1000 currency unit till 01.01.2006***

***** 01.01.2005 tarixindən etibarən 100 valyuta vahidi / 100 currency unit till 01.01.2005***

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı / Source: The Central Bank of the Republic of Azerbaijan

****** ******

Valyuta bazarı - bir valyutanın bir və ya bir necə valyutalara dəyişdiyi bazardır. Konvertasiya zamanı bir valyuta öz coğrafi yaxud suveren faktorlarına əsasən daxili, digəri isə xarici valyuta sayılır, buradan xarici valyuta termini yaranıb. Valyuta bazarı tək treyderlər və maliyyəçilər üçün yox eyni zamanda sosial cəmiyətin hər fərdi üçün açıq hesab olunur. Dövlətlərin və dövlət daxilində milli blokların öz valyutası olduğu vaxtadək, valyuta bazarı biznessə, geyri-kommersiya sektoruna və bəzən kommersiya təşkilatlarının siyası tələbatlarını, dövlətlərin, ayrı-ayrı şəxslərinin, təşkilatların və qurumların mənafeyini qorumağa davam edəcəkdir. Gördüyünüz kimi valyuta bazarı çox geniş bir anlayışdır.
Valyuta məzənnəsi – bir valyutanın dəyərinin başqa valyutada olan ifadəsidir. Bu zaman pulun dəyər ölçücü və mübadilə vasitəsi funksiyaları milli iqtisadiyyatda və beynəlxalq ticarətdə əks olunur. Pulun əsas məqsədi ümümi dəyər öçüsü olmaq və malların alış-satış mübadiləsi zaman mübadilə vasitəsi olmaqdır. Beləliklə hər malın müəyyən bir dəyəri yarandığı zaman onları bir yaxud bir neçə başqa mallara dəyişib tranzaksiya etməyə ehtiyac qalmır, malı müəyyən pul vahidi ilə mübadilə etmək mümkün olur.

**** ****

İki ölkənin iqtisadi istehsal potensialını və yaşayış səviyyəsini makroiqtisadi təhlilini və analizini aparmaq üçün beynəlxalq maliyyə institutlarının istifadə etdikləri ən yayılmış müqaisə növü "Alıcılıq Qabiliyyəti Pariteti"-dir.
Alıcılıq Qabiliyyəti Pariteti teoriyasına görə bir məhsul hər bir ölkədə eyni qiymətədir və hər kəs bir məhsul üçün eyni miqdar pul ödəməlidir. Nəticədə Alıcılıq Qabiliyyəti Pariteti və real birja qiymətləri arasında məzənnə fərqi yaranır. Hər ölkə eyni məhsul istehsal edə bilmir və yeni məhsulların daşınması və alıcıya fiziki olaraq catdırılana dək müəyyən xərclər tələb edir. Dövlətlər bu kimi xərcləri idarə etmək üçün tariflər təyin edir, ki bu da xarici valyuta ilə müqaisə edilən zaman müəyyən uyğunsuzluqlar yaradır. Alıcılıq Qabiliyyəti Pariteti $S=P_1/P_2$ düsturla hesablanır.

Burada,

S – bir ölkənin valyutasının digər ölkə valyutası arasında olan valyuta məzənnəsi,
P_1 – malın birinci ölkədə olan qiyməti,
P_2 – malın ikinci ölkədə olan qiyməti.
Düşünək ki 1 kq alma Amerikada 1 dollardır, Azərbaycanda isə 2 manatdır. Burada alıcılıq qabiliyyəti paritetini tapmaq üçün,

S=2/1=2. burada 2 Azərbaycan manatının 1 Amerika dollarına bərabər olmasını görürük və Alıcılıq Qabiliyyəti Pariteti iki valyutani belə dəyərləndirdiyinin şahidi oluruq. Lakin bu qiymətlər hazırki birjada mövcud olan məzənnə qiymətlərindən fərqli olur. Fərqin əsas səbəbi infilyasiya dərəcəsinin nəzərə alınmaması, ölkədə hal-harırda olan kasıblıq dərəcəsi və ölkədə mallar və xidmətlərə qoyulan tarif dərəcələridir. Alıcılıq Qabiliyyəti Pariteti Azərbaycanda və dünyada hər bir ölkə üzrə infilyasiyanın dərəcəsini hesablamağa kömək edir: bir ölkənin ümimi mallar səbətinin diqər bir ölkənin mallar səbətinə bölür və ümimi fərqi tapır. Bütün amillər dəqiq öz təsdiqini tapmadığından bəzən qeyri-rəsmi faktorlar Alıcılıq Qabiliyyəti Paritetini hesablamağa manə olur yaxud alınmış nəticiləri qeyri dəqiq edir.

****** ******

Təssüf ki "Qara Bazar"-da hal-hazırda ölkə üçün vacib olan bir faktora – ***Real Ekkeftiv Məzənnəyədə*** (*Real Effective Exchange Rate*) təsir göstərir. Çünki ümumi hesablanmış Effektiv məzənnə yalnız rəsmi əldə edilən məlumatlara əsasən hesablanır və digər qeyri-rəsmi məlumatlar nəzərə alınmır. REER bir valyutanın digərinə münasibətdə necə dəyişdiyini müəyyən edir. Biz Real ekkeftiv məzənnəni hesablayaraq milli valyutamızın digər valyutalar səbətinin dəyərinə nibətini müəyyən etmiş oluruq. Kölqə iqtisadiyyatı vasitısi ilə yaranmış əlavə dəyər rəsmi sənədlərdə öz təstiqini tapmadığından müəyyən rəsmi hesablamalar "nisbi" xarakter daşımış olur. Eyniliklə qara bazarda baş verən məzənnə fərqi nəticədə ikili məzənnəyə gətirib çıxardır. Belə ki, geyri-rəsmi məntəqələrdə USD/AZN məzənnəsində rəsmi göstəricilərdən fərqli olaraq Azərbaycan manatı 1.70 $ deyil, 1.82 $ təşkil edir. Rəsmi nəzarət edilməyən pul kütləsi dövriyyədə olduğu zaman infilyasiyaya səbəb olur və bu həmdə pul dövriyyəsinin sürətinədə təsir göstərmiş olur. Qara Bazar termini Azərbaycanda 2015-ci il baş vermiş devalvasiyadan sonra daha geniş işlənməyə başladı. Belə ki, 2015-ci ildə dollara olan tələbat kəskin şəkildə artdı və bu tələbin ödənilməsi üçün ayrı-ayrı subyektlər qeyri-qanuni dollar alışı və satışı ilə məşğul olmağa başladılar. Misal olaraq Azərbaycana gəlmiş bir turistin öz pulunu dəyişməsi üçün qeyri-rəsmi məntəqəyə yaxınlaşdığı zaman o daha çox mənfəət əldə etmiş olacaq lakin bu prosess təbii olaraq milli valyutanı ucuzlaşmasına gətirib çıxaracaq.

Cədvəl 2.1 Pul bazası (dövrün sonuna)

Monetary base (end of period)

mln. manat

İl, ay	Pul bazası	o cümlədən				Dövriyyədə olan nağd pul kütləsinin pul bazasına nisbəti, %
		Pul bazası, manatla	Dövriyyədə olan nağd pullar	Müxbir hesablar	o cümlədən Məcburi ehtiyatlar	
2014	**11866.9**	**11541.9**	**10845.9**	**1013.1**	**228.0**	**91.4**
01	11142.6	11038.1	10530.2	598.4	162.0	94.5
02	11244.6	11136.5	10617.8	617.7	158.3	94.4
03	11205.6	11107.1	10676.7	519.4	165.1	95.3
04	11229.3	11105.0	10607.4	612.3	170.3	94.5
05	11366.4	11272.2	10750.5	599.9	179.2	94.6
06	11580.6	11485.2	10905.9	663.3	133.2	94.2
07	11858.1	11736.5	11144.4	702.1	190.5	94.0
08	11863.4	11743.6	11134.4	716.0	183.4	93.9
09	11646.2	11546.5	11042.3	593.2	118.5	94.8
10	11587.4	11478.0	10993.9	564.5	130.0	94.9
11	11601.1	11519.7	10955.7	627.7	115.1	94.4
12	11866.9	11541.9	10845.9	1013.1	228.0	91.4
2015	**7560.7**	**6901.8**	**5416.8**	**2137.2**	**47.4**	**71.6**
01	10760.3	10551.0	10145.3	604.5	142.0	94.3
02	9736.1	9109.9	8701.1	1028.4	155.1	89.4
03	8919.2	8339.4	8055.5	859.4	165.5	90.3
04	7870.2	7418.6	7008.9	858.3	60.1	89.1
05	7983.7	7597.3	7129.4	849.2	49.9	89.3
06	7806.0	7487.0	7084.4	718.3	62.8	90.8
07	7793.4	7467.5	7013.7	777.8	47.7	90.0
08	6886.3	6352.1	6118.5	762.7	57.1	88.9
09	7434.3	7050.4	6050.0	1378.9	47.3	81.4
10	7355.4	7055.9	5994.9	1349.7	45.9	81.5
11	7002.2	6730.6	5738.1	1257.7	43.7	81.9
12	7560.7	6901.8	5416.8	2137.2	47.4	71.6

Yuxarıda əks olunan cədvələ (Cədvəl 2.1) əsasən biz 2014-cü il və 2015-ci illər arasında müqaisə apara bilərik. 2014-cü ildə dövriyyədə böyük pul kütləsi olmuşdur lakin 2015-ci ildə baş vermiş devalvasiyadan sonra Azərbaycan Mərkəzi Bankı manatın ucuzlaşmasının qarşısını almaq üçün dövriyyədə olan pul kütləsini 50%-dən çoxunu dövriyyən çıxardı. Lakin yaranmış tələb-təklifin ödənilməsi üçün əlavə prosedurların yaranmaması vəziyyəti yalnız qismən idarə etməyə imkan verirdi. Dövriyyədə olan pul kütləsinin devalvasiyadan əvvəlki səviyyəyə bərpası yalnız 2019-cu ildə baş vermişdir. Belə ki bu ildə **10405.5** manat təşkil etmişdir (Cədvəl 2.2).

Cədvəl 2.2 Pul bazası (dövrün sonuna)

Monetary base (end of period)

mln. manat

İl, ay	**Pul bazası**	**o cümlədən**				**Dövriyyədə olan nağd pul kütləsinin pul bazasına nisbəti, %**
		Pul bazası, manatla	**Dövriyyədə olan nağd pullar**	**Müxbir hesablar**	**o cümlədən** / **Məcburi ehtiyatlar**	
Year, month	Monetary base	**of which**				Ratio of cash in circulation to Monetary base, %
		Monetary base, in manat	Cash in circulation	Correspondent accounts	**of which** / Required reserves	
2014	**11866.9**	**11541.9**	**10845.9**	**1013.1**	**228.0**	**91.4**
2015	**7560.7**	**6901.8**	**5416.8**	**2137.2**	**47.4**	**71.6**
2016	**9232.8**	**7860.5**	**6960.8**	**2258.7**	**147.7**	**75.4**
2017	**9872.6**	**8543.2**	**8140.2**	**1695.8**	**141.2**	**82.5**
2018	**10643.7**	**9545.7**	**8364.1**	**2243.8**	**163.0**	**78.6**
2019	**13125.3**	**12152.5**	**10405.5**	**2708.6**	**165.4**	**79.3**
07	11668.0	10574.3	9310.1	2303.5	157.6	79.8
08	11417.0	10157.6	9288.4	2106.5	157.8	81.4
09	11498.3	10217.3	9352.6	2132.2	159.8	81.3
10	11427.5	10298.8	9437.3	1973.9	163.3	82.6
11	11622.8	10674.5	9614.3	1993.0	166.6	82.7
12	13125.3	12152.5	10405.5	2708.6	165.4	79.3

Statistik məlumatlara əsasən biz xarici təsirin bizim milli iqtisadiyyatımıza təsirini və bu təsirlərin azaldılmasına hesablanmış müəyyən addımlara şahid oluruq. Ən sadə faktor belə valyutamıza, milli iqtisadiyyatımızın inkişafına və dövlətin qələcək üçün hazırladığı uzunmüddətli addımların məcmusuna təsir göstərməkdədir. Bunun üçün daha dəqiq planlama zamanı qeyri-rəsmi məlumatlar belə böyük rol oynamaqdadır. İqtisadiyyat termininin çox geniş olduğunu nəzərə alaraq vaxtında nəzərə alınmayan istənilən ən kiçik amil belə milli iqtisadiyyatımız üçün böyük zərərlə nəticələnə bilər. "Qara bazar" anlayışı hər nəqədər anlaşılmaz və qəbuledilməz olarsa belə onun vaxtında prudensal olaraq çərçivəyə alınmamağı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yeridilən qaydaların və siyasətin ən sonda istənilən nəticəyə qədirib çıxardılmasında böyük mane törədə bilər.